# LALƏNİN BAĞRI QANDI...

**Səhər açılanda gözlərimizə inanmadıq. Çünki biz həmin günü yaxınlarımızın birinin toyunda iştirak etməliydik. Axşamdan isə ermənilərin tez-tez atdıqları güllələrin səsi eşidilirdi. Amma buna məhəl qoyulmurdu Çünki camaat Füzulidə bu cür atəşlərə çoxdan alışıb. Və bir də camaat ona yaxşı inanır ki, Azərbaycanr ordusu 90-cı illərin əvvəllərindəki ordu deyil, indi daha güclü və daha qüdrətli ordumuz var. Elə ona görə də atəşkəsi ermənilər teztez pozsa da bundan dinc sakinlər qətiyyən narahat olmurlar. Bilirlər ki, həmin anda düşmənin cavabı veriləcək**

Aprelin 1-dən 2-nə keçən gecə səhərə yaxın güllə səsləri daha bərkdən eşidilir. Horadiz şəhərində gecələsəm də qızımın və doğmalarımın narahatlığı gözümdən yayınmır. Hər iki nəvəmin yuxudan qəfil ayılması və həyəcan keçirməsi məni bir qədər də narahat eləyir. Daha doğrusu, uşaqlar bu cür güllə səsinə alışıblar. Böyük nəvəm Sədaqət yuxulu-yuxulu gözəlrini ovuşdurur:

- Dədə, ermənilər yenə atır.

- Qorxma, - deyib nəvəmi sinəmə sıxıram. - Yenidən o biri nəvəm Tunar da ayağa qalxır. Uşaq heç nə olmayıbmış kimi mənim üstümə atılır:

- Dədə, güllələrin səsi niyə belə bərk gəlir?

Onu da birtəhər sakitləşdirirəm. İşıqları yandırırıq və sanki uşaqların ürəyində bir arxayınlıq yaranır.

Bayırda isə ağır texnikaların səsi eşidilir. Uşaqlarıma deyirəm ki, heç nədən qorxmayın, şükür Allaha, bizim ordumuz bu dəqiqə onların dərsini verəcək.

Gündüz saatlarında hərbi texnikalarımız və helikopterlərimiz Horadiz şəhərinin üstündən uçaraq ermənilərin döyüş mövqeyinə fasiləsiz zərbələr endirir. Sanki bu məqamları çoxları böyük səbirsizliklə gözləyirmiş.

## *(reportaj)*

Rayon Ağsaqqallar Şurasının sədri və "Qayıdış" qəzetinin redaktoru Məcnun Namazəliyevlə həmin yerdəyik. O da bir daha böyük həvəslə və coşğuyla bildirir ki, Horadizə hələ bir mərmi də düşməyib. Şükür olsun ki, əsgərlərimiz ermənilərin mövqelərini darmadağın ediblər

Bir azdan eşidirik ki, Azərbaycan Ordusu Horadiz şəhərinin yaxınlığındakı "Lələtəpə" yüksəkliyini erməni işğalçılarından azad edib. Bu elə bir yüksəklikdir ki, ordan Horadiz şəhərini, Cəbrayılın Cocuq-Mərcanlı kəndini, hətta digər yaşayış məntəqələrimizi ermənilər nəzarətdə saxlayırdı və tez-tez də bu yüksəklikdən mövqelərimizə atəş açırdılar.

Şəhərə göz gəzdirirəm. Bir adam belə yerindən tərpənməyib. Eyni zamanda bütün sakinlərdə çox yüksək əhval-ruhiyyə və ovqat var. Şəhərin küçələrində polis əməkdaşları və post-patrul xidməti asayişi qorumaqla insanların arasında bir nikbinlik yaradır. Elə camaat da polis maşınlarını və hərbi texnikanı görərək tam sakitləşir.

Bir neçə nəfərlə söhbətləşirəm. Onlar deyirlər ki, yuxarıda ağır döyüşlər gedir. Amma biz burda narahat olsaq da ürəyimiz tam sakitdir. Çünki çox güclü və qüdrətli ordumuz var. Başımızın üstündən uçub keçən helikopterləri görəndə fərəh hissi keçiririk. Əvvəlki qorxudan və həyəcandan heç bir əlamət qalmayıb. Biz yaxşı bilirik ki, Azərbaycan prezidenti cənab İlham Əliyev Azərbaycanın və o cümlədən Füzulinin təhlükəsizliyi üçün bütün tədbirləri vaxtında həyata keçirib. Bizi ürəkləndirən də və bu torpağa bağlayan da məhz bu təhlükəsizlik tədbirləridi.

Böyük Bəhmənlidən, Yağlıvənddən, Babidən, Araytlıdan, Kərimbəylidən və digər yaşayış məntəqələrindən çoxlu sayda könüllülər döyüşmək üçün hərbi hissələrə getməyə can atırlar. Amma onlara bir o qədər də hələ ki ehtiyac yoxdur. İnsanlardakı döyüşkənlik ruhunu, vətənpərvərliyi və mübarizliyi görəndə qəlbimdə xoş duyğular baş qaldırır. Düşünürəm ki, bu xalqın vətənpərvərlik ruhu, torpaqsevərliyi nə yaxşı ki belə yüksəkdir.

Bir neçə yaralı əsgərlərimizin Füzuli Diaqnostika Mərkəzinə gətirilməsi yüzlərlə insanın həmin xəstəxanaya axışmasına səbəb olur. Onlar gəlib könüllü olaraq qan verməyə hazır olduqlarını bildirirlər. Qonşu kəndlərdən dəstə-dəstə cavanlar, gənclər qan vermək üçün xəstəxanalara axışırlar. Düzdür, onlara bir o qədər ehtiyac olmasa da, amma bu vətənsevərlik onu göstərir ki, hər bir azərbaycanlı vətəninə öz xidmətini bacardığı qədər göstərməyə səy edir.





Təkcə "Lələtəpə" yüksəkliyinin azad edilməsi zamanı 21 nəfər erməni əsgəri öldürülüb. "Lələtəpə"nin bu gün hər tərəfində yaşıl otlar, güllər, çiçəklər göz oxşayır. Sanki bu güllər, çiçəklər də əsirlikdən xilas olub və yenidən torpaqlan baş qaldıraraq qəhrəman əsgərlərimizi salamlayır. Lalələrin qırmıza don geyinməsi qələbə rəmzi kimi mənim diqqətimi çəkir.

Ölkə prezidenti cənab İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında bir daha bəyan edib ki, bu böyük qələbədir, düşmənin təxribatları heç vaxt cavabsız qalmayacaq. Cənab prezidentin belə bir vətənpərvər çıxışı hər bir Azərbaycan vətəndaşının qəlbində çox böyük sevgi və mübarizlik duyğusu yaradır və onları bu vətənə, bu torpağa daha ürəkdən bağlayır.

Mən şəhid əsgərlərimizdən İlkin Məmmədovu xüsusilə xatırlamaq istəyirəm. Çünki o, aprelin 1-də öz el-obasına qayıtmalı idi. Belə ki, onun xidməti müddəti başa çatırdı, amma o öz kəndinə, elinə şəhid kimi döndü. "Mİ-24" helikopterində baş leytenant Bəkir İsmayılov döyüş zamanı qəhrəmancasına həlak olub. Rəvan Nurayev ermənilərin mövqelərinə zərbə endirərkən şəhidlik zirvəsinə yüksəlib. 12 şəhidimizin hər biri barəsində onu deyə bilərəm ki, onlar heç vaxt ölməyiblər, öz qızıl qanları ilə düşməndən azad olunmuş torpaqlarımızı suvarıblar. O qan lalələr kimi yenidən torpaqdan boylanır və şəhidləri yaşadır

Aprelin 3-də Füzulinin Horadiz şəhərində tam sakitlikdir. Məktəblər, xəstəxanalar hər şey adi qaydada işləyir. Heydər Əliyev prospektində, digər küçə və meydanlarda insanlar rahat və təhlükəsiz hərəkət edirlər və onları da bu təhlükədən, bu qorxudan qoruyan böyük Azərbaycan Prezidenti və qüdrətli Ordudur. O ordu ki, bu gün Azərbaycan bayrağını "Lələtəpəyə" sancıb.

Nəvələrim Sədaqət və Tunar məktəbdən sevinclə evlərinə qayıdırlar. Məni görən kimi üstümə atılırlar.

- Dədə, bu gün müəllimimiz dedi ki, heç nədən qorxub-eləməyin. Çünki bizdən qabaqda çox güclü və qeyrətli əsgərlərimiz var. Və biz də heç kimdən qorxmuruq, dədə! Rahat get Bakıya, nənəm çox narahatdı. Biz də burda dərslərimizi oxuyaq, tez böyüyüb vətənimizi qoruyaq.

**Horadizdən ayrılanda gözlərim dolur. Amma bu kədərli göz yaşları deyil, döyüş mövqeyində, "Lələtəpə"də Azərbaycanın qeyrətini qoruyan əsgərlərin böyük ruh yüksəkliyini görəndən sonra yaranan sevinc göz yaşlarıdı. Bu həm də uzun illər ermənilərin məğlubedilməzliyini bir neçə saat içərisində alt-üst edən Azərbaycan əsgərinin, Azərbaycan ordusunun qələbəsinin sevinci göz yaşlarıdı. Və bir gün eşidəcəyik ki, "Lələtəpə"dən sonra Füzuliyə, Şuşaya, Ağdama, Kəlbəcərə, Laçına Azərbaycan bayrağı sancılıb. Azərbaycan əsgəri qələbəyə doğru gedir. Yolun uğurlu, qələbən möhtəşəm olsun, Azərbaycan əsgəri!...**

**FAİQ QİSMƏTOĞLU**
**Bakı-Horadiz-Bakı**